# Müşavir (Rəhbərlik yanında apparat, Qazma üzrə) vəzifəsi üzrə test tapşırıqları

1. Aşağıdakılardan hansı rotorlu qazma qurğusunun tərkib hissəsi deyil?

A) Dayaq-hərəkət sistemi

B) Güc sistemi

C) Rotor sistemi

D) Qazma məhlulunun dövranı sistemi

E) Qazma məlumatlarının qeydiyyatı və onlara nəzarət sistemi

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

2. Aşağıdakılardan hansı quyuların müvəffəqiyyətlə və qənaətlə qazılması üçün nəzarət olunan parametrlərə aid deyil?

A) Qazma baltasının fırlanma tezliyi

B) Qazma məhlulunun sərfi

C) Baltaya düşən oxboyu yük

D) Quyunun dərinliyi

E) Qazma məhlulunun dövranı

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

3. Qazma alətinin aşağı hissəsinə aid olan hansıdır?

A) Başmaq

B) Süzgəc

C) Paker

D) Mərkəzləşdirici fənər

E) Stabilizator

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

4. Hansı variant rotorlu qazma buruğunun tərkib hissəsinə aid deyil?

A) Top drive

B) Rotor stolu

C) Qazma bucurqadı

D) Qüllə

E) Nasoslar

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

5. Qaldırma-endirmə sisteminin funksiyası nədir?

A) Qazma alətini fırladaraq qazmanın idarə olunması

B) Qazma qurğusunu elektrik enerjisi ilə təmin edilməsi

C) Qazma zamanı alətin qaldırılıb endirilməsi və qoruyucu kəmərin endirilməsi

D) Qoruyucu kəmərlərin kipliyə yoxlanması

E) Qoruyucu kəmərlərin sementlənməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

6. Qazma bucurqadının funksiyası nədir?

A) Qazma zamanı yaranan şlamları yer səthinə çıxarmaq

B) İşlək boru yararsız hala düşdükdə onun funksiyasını yerinə yetirmək

C) Qazma və qoruyucu kəmərin və digər alətlərin quyuda aşağı və yuxarı hərəkətinin və açılıb bağlanmasının təmin edilməsi

D) Ağır elementlərin qaldırılıb endirilməsi zamanı mexaniki fayda yaratmaq

E) Qoruyucu kəmərlərin kipliyə yoxlanması

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

7. Bloklar və qazma kanatının əsas funksiyası nədir?

A) Qazma zamanı yaranan şlamları yer səthinə çıxarmaq

B) Ağır elementlərin qaldırılıb-endirilməsi zamanı mexaniki fayda yaratmaq

C) İşlək boru yararsız hala düşdükdə onun funksiyasını yerinə yetirmək

D) Qoruyucu kəmərlərin kipliyə yoxlanması

E) Qoruyucu kəmərlərin sementlənməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

8. Tal kanatının qırılması hansı problemlərə gətirib çıxarır?

A) Müxtəlif alətlərin quyuya düşməsi, avadanlıq və işçilərin zədələnməsi

B) Keyfiyyətsiz sementləmə

C) Quyu lüləsində əyilmə

D) Sementin vaxtından əvvəl tutuşması

E) Sementin quyu ağzına kimi qalxmaması

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

9. Hansı məhlul dövranı sisteminin tərkib hissəsi deyil?

A) Məhlul çənləri

B) Qazma baltası

C) Məhlul nasosu

D) Həlqəvi fəza

E) Bucurqad

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

10. Top drive ilə qazmada istifadə olunmayan alət və ya avadanlıq hansıdır?

A) Stabilizator

B) Qazma baltası

C) Ağırlaşdırılmış qazma boruları

D) Bucurqad

E) İşlək boru

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

11. Preventorun bağlanma sükanının üzərində və qarşısında aşağıdakılardan hansı qeyd olunmur?

A) Preventorun tam bağlanmasını göstərən rəqəm

B) Preventorun bağlanma istiqaməti

C) Kəmərin kipliyə yoxlanma təzyiqi

D) Preventorun plaşkalarının diametri

E) Preventorun yuxarıdan aşağı sıra nömrəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dənizdə neft və qaz quyularının tikintisinin vahid texniki qaydaları. Bakı, 1998

12. Preventorun köməkçi idarəetmə pultu harada yerləşdirilir?

A) Qazma ustasının yanında

B) Buruqdan aşağıda təhlükəsiz zonada

C) Qazmaçının yanında

D) Buruqdan ən azı 30 m aralıda

E) Toplanış məntəqəsində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dənizdə neft və qaz quyularının tikintisinin vahid texniki qaydaları. Bakı, 1998

13. Preventor quyu ağzına quraşdırılmadan əvvəl hansı təzyiqə sınanmalıdır?

A) İşçi təzyiqdən 1,5 dəfə artıq təzyiqə su ilə

B) Pasportda göstərilən işçi təzyiqə su ilə

C) Pasportda göstərilən işçi təzyiqə qazma məhlulu ilə

D) İşçi təzyiqdən 1,5 dəfə artıq təzyiqə qazma məhlulu ilə

E) İşçi təzyiqdən 2 dəfə artıq təzyiqə qazma məhlulu ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dənizdə neft və qaz quyularının tikintisinin vahid texniki qaydaları. Bakı, 1998

14. Tal sisteminə aşağıdakılardan hansı daxil deyil?

A) Tal kanatı

B) Kranblok

C) Tal bloku

D) Elevator

E) Qarmaq

Testin çətinlik dərəcəsi: asan

İstinad: Neft-qaz çıxarma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005

15. Aşağıdakılardan hansı sıxaclı preventorlara aiddir?

A) Kəsici sıxac

B) Bölücü sıxac

C) Yönləndirici sıxac

D) Dəyişdirici sıxac

E) Ştuser

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

16. Verilənlərdən hansı ən mühüm qazma məlumatlarına aid deyil?

A) Rotorun fırlanma sürəti

B) Quyunun dərinliyi

C) Nasosun məhsuldarlığı

D) Məhlulun sıxlığı

E) Quyunun bir metrinin qazılma qiyməti

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

17. Qarmağa düşən yükün kəskin artması quyuda hansı hadisənin baş verməsinin əlamətlərindən biridir?

A) Qazma alətinin oturması

B) Məhlul itkisi zonasına rast gəlinməsi

C) Lay məhlunun quyuya daxil olması

D) Bərk süxurlara rast gəlinməsi

E) Qazma alətinin aşağı hissəsinin qırılıb quyu dibinə düşməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

18. Fırlandıcı momentin həddindən artıq yüksəlməsi quyuda hansı hadisənin baş verməsinin əlamətlərindəndir?

A) Məhlul itkisi zonasına rast gəlinməsi

B) Həlqəvi fəzada həddindən artıq şlamın yığılması

C) Lay məhlunun quyuya daxil olması

D) Qazma alətinin oturması

E) Qazma alətinin aşağı hissəsinin qırılıb quyu dibinə düşməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

19. Məhlul çənində səviyyənin qəfil artması quyuda hansı hadisənin baş verməsinin əlamətlərindəndir?

A) Udulmanın baş verməsi

B) Məhlul itkisi zonasına rast gəlinməsi

C) Quyuya lay flüidlərinin daxil olması və quyunun işləməsi

D) Aşağı təzyiqli layların zədələnməsi

E) Bərk süxurlara rast gəlinməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

20. Dəniz rayzeri nədir?

A) Qazma baltasını fırladan qurğu

B) İstismar kəmərini təşkil edən borular

C) Stasionar özüllərdə istifadə olunan işlək boru

D) Dənizin dibindəki quyu ağzı ilə qurğunun qazma meydançasını birləşdirən borudur

E) Qazma şlamlarını dənizin dibinə yönləndirmək üçün istifadə olunan boru

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

21. Qazma məhlulunun əsas funksiyalarına aid olmayan variant hansıdır?

A) Qazma alətinin və baltasının soyudulması

B) Qazma şlamının yer səthinə çıxarılması

C) Lay flüidinin təzyiqinin qarşısının alınması

D) Qazma şlamlarının dənizin dibinə yönləndirilməsi

E) Quyu lüləsinin stabilləşdirilməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

22. Bərk fraksiyaların qazma məhlulundan kənarlaşdırılması üçün istifadə olunmayan avadanlıq hansıdır?

A) Lilayırıcılar

B) Titrəyici ələklər

C) Qumayırıcılar

D) Çökdürücülər

E) Məhlul təzimləyiciləri

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

23. Verilənlərdən hansı qazma məhlulunun qatılaşdırıcılarına aiddir?

A) Dəmir oksidi, natrium poliakrilatlar

B) Fosfatlar, liqnitlər

C) Barit, kalsium karbonat

D) Qalenit, tannatlar

E) Bentonit, polimerlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

24. Alətin qaldırılması zamanı boru arxası həlqəvi fəzada təzyiq necə dəyişir?

A) Əvvəl azalır sonra artır

B) Artır

C) Dəyişmir

D) Azalır

E) Əvvəl artır sonra azalır

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

25. Quyu lüləsinin lazimi dərəcədə təmizlənməməsi quyuda hansı problemin yaranmasına səbəb olmur?

A) Lay məhsulunun təzahürü

B) Borunun tutulması

C) Layın yarılması

D) Füksək fırlanma momenti və dartınma

E) Qazma sürətinin azalması

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

26. Verilənlərdən hansı həlqəvi fəzada şlamların quyu ağzına çıxarılmasına təsir edən amillərdən deyil?

A) Qazma baltasının diametri

B) Şlamların sürüşmə sürəti

C) Qazma borusunun fırlanma sürəti

D) Flüidin reoloji xassələri

E) Lülənin maililiyi

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

27. Qazmanın sürəti artması şlamların miqdarına necə təsir edir?

A) Dəyişmir

B) Azalır

C) Artır

D) Şlam miqdarı sıfıra enir

E) Əvvəl azalır sonra artır

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

28. Hansı halda quyuda təzahür baş verir?

A) Məhlulun xüsusi çəkisinin lay təzyiqindən yuxarı olması

B) Məhlulun xüsusi çəkisinin yarılma təzyiqindan yuxarı olması

C) Məhlulun xüsusi çəkisinin yarılma təzyiqindən aşağı olması

D) Məhlulun xüsusi çəkisinin lay təzyiqindan aşağı olması

E) Yarılma təzyiqinin lay təzyiqindən yuxarı olması

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

29. Quyuda təzahür zamanı təzahürün qarşısının alınması və nəzarət məqsədilə istifadə olunan mühəndis üsulunun mahiyyəti nədir?

A) İlkin quyu məhlulu ilə proses davam etdirilir

B) Lay məhsulu ilkin məhlul sıxlığından istifadə etməklə çıxarılır və daha sonra ağır məhlul vurulur

C) Başlanğıc məhlulu quyu ağzı fontan kalapanı vasitəsilə uğurla boşaltmaqla təzahür flüidinə yuxarıya miqrasiya etməyə imkan verilir

D) Yüngül məhlulun və ya suyun yüksək sərfiyyatı ilə təzahür nəzarət altına gətirilir

E) Quyuya ilkin məhlulu və lay flüidini lülədən quyu ağzına çıxarmaq üçün daha böyük sıxlıqlı məhlul vurulur

Testin çətinlik dərəcəsi: çətin

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

30. Verilənlərdən hansı quyuya nəzarət sisteminin tələblərinə aid deyil?

A) Səthdə quyunun bağlanması

B) Qazma məhlulunun sıxlığının azaldılması

C) Təzahür flüidinin quyu lüləsindən çıxarılması

D) İlkin məhlulun daha ağır məhlulla sıxışdırılması

E) Qazma borusunun təzyiq altında quyuya endirilməsi və ya quyudan çıxarılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

31. Plaşkalı preventorların neçə növü var?

A) 1

B) 3

C) 2

D) 5

E) 4

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

32. Divetorun əsas funksiyası nədir?

A) Quyunu bağlamaqla lay məhsulunun qarşısını almaq

B) Lay flüidini geniş diametrli ventil xətləri vasitəsi ilə qazma platformasından kənra yönəltmək

C) Qoruyucu kəmərləri endirmək

D) Qoruyucu kəmərləri kipliyə yoxlamaq

E) Kəmər dəstinin ətrafında oturtmaq və kipləşdirmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

33. Verilənlərdən hansı maili qazmanın tətbiq sahəsinə aid deyil?

A) Dənizdə vahid nöqtədən qrup şəklində quyuların qazılması

B) Axtarış quyularının qazılmasında daha geniş tətbiq olunması

C) Məhsuladar layda üfüqi quyunun qazılması

D) Yan lülənin qazılması

E) Potensial problemli zonalardan yan keçmək üçün qazma

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

34. Maili qazmanın tələblərinə uyğun olmayan variant hansıdır?

A) Həlqəvi fəzanın effektiv şəkildə təmizlənməsi üçün yüksək hidravlik sistemlərdən istifadə olunmasl

B) Quyu dibində idarə oluna bilən sistemlərin və qazma zamanı ölçü alətlərinin istifadəsi

C) Qoruyucu kəmərlərin daha çox mərkəzləşdirilməsi

D) Qazma baltasının qabaqcadan müəyyən edilmiş trayektoriyalar boyunca istiqamətləndirilməsi üçün xüsusi əyilən alətlər

E) Düz istiqamətdə trayektoriyanın saxlanması və yükün qazma baltasına effektiv şəkildə ötürülməsi üçün qazma alətinin aşağı hissəsinin şaquli quyularda olduğu kimi yığılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

35. Qazma alətinin funksiyaları ilə bağlı verilənlərdən hansı yalnışdır?

A) Quyu lüləsinin istiqamətinə nəzarəti təmin edir

B) Dövri hərəkəti qazma baltasına ötürür

C) Qazma məhlulunu quyu dibinə ötürür

D) Effektiv qazma işi üçün balta üzərində yük yaradır

E) Qazma baltasının dövrlərinin sayını tənzimləyir

Testin çətinlik dərəcəsi: orta

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

36. Nə üçün qalın divarlı qazma boruları standart qazma boruları ilə AQB arasında yerləşdirilir?

A) Əymə zamanı möhkəmlik əmsalını azaldır və qazma alətinin möhkəmliyə davamlılığını yaxşılaşdırır

B) Qarmağa düşən yükü azaldır

C) Qazma alətinin möhkəmliyə davamlılığını azaldır

D) Daha böyük bucaq əldə etməyə imkan verir

E) Qazma baltasının yönünü müəyyənləşdirir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

37. Qazma aləti hansı parametrlərə müvafiq olaraq layihələndirilir?

A) Fırlanma, dartılma və əyilmə

B) Genişlənmə və daralma

C) Yarılma və bükülmə

D) Sıxılma və burulma

E) Genişlənmə və uzanma

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

38. Qazma alətini qaldıran zaman dartılma və gərilmə yükü alətin hansı hissəsində maksimal olur?

A) Stabilizator

B) Qazma baltası

C) Ağırlaşdırılmış qazma boruları

D) Qazma alətinin üst hissəsi

E) MWD

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

39. Verilənlərdən hansı qazma alətinin mexaniki tutulmasının başlıca səbəblərindən deyil?

A) Plastik gil və ya duz bölmələrini sıxılması

B) Həlqəvi fəzada qazma şlamlarının həddindən artıq toplanması

C) Quyu lüləsinin uçması

D) Təzyiqlər düşküsündən alətin tutulması

E) Alətin lülədə yuva açaraq tutulması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: C.C.Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

40. Rotor qazması ilə bağlı mülahizələrdən hansı doğrudur?

A) Balta, onun üstündə yerləşdirilmiş xüsusi elektrik mühərriki vasitəsilə quyu dibində hərəkətə gətirilir

B) Balta və onun üstündə yerləşdirilmiş turbin qazma boruları ilə quyudibinə buraxılır və turbin qazma borularının içərisinə yüksək təzyiqlə vurulan məhlulun enerjisi ilə hərəktə gətirilir ki, bununla da hərəkət baltaya ötürülür

C) Quyu dibinə endirilmiş balta, qazma boruları ilə birlikdə quyu ağzında yerləşdirilmiş rotor vasitəsilə hərəkətə gətirilir

D) Balta və onun üstündə yerləşdirilmiş rotor qazma boruları ilə quyu dibinə buraxılır və rotor naqil vasitəsilə ötürülən elektrik enerjisi hesabına hərəkətə gətirilir ki, bununla da hərəkət baltaya ötürülür

E) Quyudibinə endirilmiş balta, qazma boruları ilə birlikdə qazma qülləsində asılan top drive qurğusu vasitəsilə hərəkətə gətirilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

41. İstismar quyuları ilə bağlı mülahizələrdən hansı doğrudur?

A) Neft və qazın yığıldığı perspektivli zonaları aşkar etmək, seysmik və digər geofiziki tədqiqatların nəticələrini dəqiqləşdirmək, kəsilişin geoloji-geofiziki xarakteristikası haqqında məlumatlar toplamaq və rayonda əsaslı surətdə geoloji işlərin aparılmasının zəruriliyini müəyyən etmək üçün qazılır

B) Geoloji çəkilişlər, struktur qazıma, geofiziki və geokimyəvi tədqiqatlar yaxud bu üsullar kompleksi nəticəsində sahənin neftlilik və qazlılığını müəyyən etmək üçün qazılır

C) Sənaye əhəmiyyətli neftli-qazlı sahələrdə yatağın konturlarını təyin etmək, yataqdakı ehtiyatı müəyyən etmək və onun işlənməsi məqsədilə hazırlıq işlərinə başlamaq üçün qazılır

D) Neft və qaz yataqlarının işlənməsi üçün qazılır, bu qəbildən olan quyulara qiymətləndirici, vurucu və müşahidəci quyular aiddir

E) Aşkar edilmiş perspektiv sahələrdə axtarış-kəşfiyyat quyularının qazılmasına hazırlıq işlərinin aparılması, struktur quyuların qazılması nəticəsində müxtəlif nöqtələrdə layların yatım elementlərini təyin etmək (tektonikası, stratiqrafiyası və litologiyası) və həmin sahənin geoloji profilinin tərtib edilməsi üçün qazılır

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

42. Kəşfiyyat quyuları ilə bağlı mülahizələrdən hansı doğrudur?

A) Geoloji çəkilişlər, struktur qazıma, geofiziki və geokimyəvi tədqiqatlar yaxud bu üsullar kompleksi nəticəsində sahənin neftlilik və qazlılığını müəyyən etmək üçün qazılır

B) Neft və qaz yataqlarının işlənməsi üçün qazılır. Bu qəbildən olan quyulara qiymətləndirici, vurucu və müşahidəci quyular aiddir

C) Sənaye əhəmiyyətli neftli-qazlı sahələrdə yatağın konturlarını təyin etmək, yataqdakı ehtiyatı müəyyən etmək və onun işlənməsi məqsədilə hazırlıq işlərinə başlamaq üçün qazılır

D) Neft və qazın yığıldığı perspektivli zonaları aşkar etmək, seysmik və digər geofiziki tədqiqatların nəticələrini dəqiqləşdirmək, kəsilişin geoloji-geofiziki xarakteristikası haqqında məlumatlar toplamaq və rayonda əsaslı surətdə geoloji işlərin aparılmasının zəruriliyini müəyyən etmək üçün qazılır

E) Aşkar edilmiş perspektiv sahələrdə axtarış-kəşfiyyat quyularının qazılmasına hazırlıq işlərinin aparılması, struktur quyuların qazılması nəticəsində müxtəlif nöqtələrdə layların yatım elementlərini təyin etmək (tektonikası, stratiqrafiyası və litologiyası) və həmin sahənin geoloji profilinin tərtib edilməsi üçün qazılır

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

43. Axtarış quyuları ilə bağlı mülahizələrdən hansı doğrudur?

A) Aşkar edilmiş perspektiv sahələrdə axtarış-kəşfiyyat quyularının qazılmasına hazırlıq işlərinin aparılması, struktur quyuların qazılması nəticəsində müxtəlif nöqtələrdə layların yatım elementlərini təyin etmək (tektonikası, stratiqrafiyası və litologiyası) və həmin sahənin geoloji profilinin tərtib edilməsi üçün qazılır.

B) Neft və qaz yataqlarının işlənməsi üçün qazılır. Bu qəbildən olan quyulara qiymətləndirici, vurucu və müşahidəci quyular aiddir

C) Sənaye əhəmiyyətli neftli-qazlı sahələrdə yatağın konturlarını təyin etmək, yataqdakı ehtiyatı müəyyən etmək və onun işlənməsi məqsədilə hazırlıq işlərinə başlamaq üçün qazılır

D) Neft və qazın yığıldığı perspektivli zonaları aşkar etmək, seysmik və digər geofiziki tədqiqatların nəticələrini dəqiqləşdirmək, kəsilişin geoloji-geofiziki xarakteristikası haqqında məlumatlar toplamaq və rayonda əsaslı surətdə geoloji işlərin aparılmasının zəruriliyini müəyyən etmək üçün qazılır

E) Geoloji çəkilişlər, struktur qazıma, geofiziki və geokimyəvi tədqiqatlar yaxud bu üsullar kompleksi nəticəsində sahənin neftlilik və qazlılığını müəyyən etmək üçün qazılır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

44. Verilənlərdən hansı fiziki qazma üsullarına aid deyil?

A) Partlayışla qazma

B) Fırlanma üsulu ilə qazma

C) Hidravlik qazma

D) Kimyəvi qazma

E) Termoqazma

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

45. Balta dişlərinin süxura batması və onu dağıtması hansı amildən asılı deyil?

A) Balta tipinin düzgün seçilməsi

B) Baltanın diametri

C) Baltaya verilən oxboyu yük

D) Baltanın işlək sahəsinin (ağzının və ya dişlərinin) vəziyyəti

E) Qazılan süxurların mexaniki xassələri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

46. Aşağıdakılardan hansı quyuların keyfiyyətlə qazılmasında əsas rol oynayan amil deyil?

A) Quyunun dərinliyi

B) Balta tipinin düzgün seçilməsi

C) Rejim parametrlərinin optimal qiymətlər həddində saxlanması

D) Geoloji-texniki tapşırıq tələblərinin ciddi surətdə yerinə yetirilməsi

E) Müxtəlif xasslərə malik süxurları müvəffəqiyyətlə qazılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

47. Frezerli baltaların əsas təyinatı hansıdır?

A) Sement körpülərini və quyuda olan kənar metal cisimləri qazmaq

B) Quyu lüləsinin daraldığı yerlərdə quyunun diametrini bərpa etmək

C) Geoloji kəsilişdə az və orta abrazivliyə, çox bərk, bərk və orta bərkliyə malik süxurları qazmaq

D) Yerin dərin qatlarında yerləşən plastik və orta abrazivliyə malik süxurları qazımaq

E) Quyu dibində dağıdılan süxuru təbii şəkildə təmiz və qarışıqsız əldə etmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

48. Almazlı (PDC) baltaların əsas təyinatı hansıdır?

A) İkinci lülənin açılmasında, əvvəlki balta ilə qazılmış lülənin diametrini daha böyük diametrlə qazmaq

B) Sement körpülərini və quyuda olan kənar metal cisimləri qazmaq

C) Quyu dibində dağıdılan süxuru təbii şəkildə təmiz və qarışıqsız əldə etmək

D) Quyunun kəsilişində yüksək plastikliyə malik süxurların şaquli və radial təzyiqləri nəticəsində və geodinamik proseslərin təsirindən qoruyucu kəmərlərin əzilərək, silindrik formasının dəyişdiyi yerlərin əvvəlki nominal diametrini bərpa etmək

E) Geoloji kəsilişdə az və orta abrazivliyə, çox bərk, bərk və orta bərkliyə malik süxurları qazmaq

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

49. Nizəvari baltaların əsas təyinatı hansıdır?

A) Böyük diametrli quyu lüləsindən kiçik diametrli quyu lüləsinə keçmək, qoruyucu borular içərisində qalıb bərkimiş sement tıxaclarını qazımaq, bəzi qəzaların ləğvi üçün istifadə etmək, qoruyucu kəmərlərin başmaqlarını sındırmaq

B) Geoloji kəsilişdə az və orta abrazivliyə, çox bərk, bərk və orta bərkliyə malik süxurları qazmaq

C) Quyu dibində dağıdılan süxuru təbii şəkildə təmiz və qarışıqsız əldə etmək

D) Quyunun kəsilişində yüksək plastikliyə malik süxurların şaquli və radial təzyiqləri nəticəsində və geodinamik proseslərin təsirindən qoruyucu kəmərlərin əzilərək, silindrik formasının dəyişdiyi yerlərin əvvəlki nominal diametrini bərpa etmək

E) Quyu lüləsinin daraldığı yerlərdə quyunun diametrini bərpa etmək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

50. Rotorlu qazmada qazma kəmərinin köməkçi hissələrinə aid olan variant hansıdır?

A) Qazma boruları

B) Balta

C) Stabilizator

D) AQB

E) İşlək boru

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

51. İşlək boruya aid mülahizələrdən hansı yalnışdır?

A) Qazıma zamanı hər dəfə aparıcı borunun uzunluğunun iki misli qədər qazıma gedişindən sonra aləti açmaq və ona növbəti qazma borusunu əlavə etmək lazımdır

B) Qazma kəmərinin yuxarı ucuna bağlanmış, yüksək keyfiyyətli xüsusi poladdan hazırlanmış qalın divarlı, silindrik dövran kanalına malik olan en kəsiyi kvadrat və altıtilli borudur

C) Rotor üsulu ilə qazıma prosesində və lazım olan bütün hallarda fırlanma hərəkətini qazıma alətinə ötürür

D) Quyudibi qazıyıcıları qazıma zamanı qazıyıcıların reaktiv momentlərinə qarşı qazıma alətini tərpənməz vəziyyətdə saxlayır

E) Quyu dərinləşdikcə qazıma kəmərinə boru əlavə edildik-dən sonra qazıma prosesini davam etdirməyi təmin edir

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

52. Hansı variant quyu lüləsinin təbii əyilməsinə təsir edən geoloji amillərə aid deyil?

A) Quyu divarında müxtəlif çatlar və boşluqların olması

B) Şaxt və ya istiqamətləndirici kəmərlərin tam şaquli istiqamətdə buraxılmaması

C) Layları təşkil edən süxurların mexaniki xassələrinin dəyişkənliyi

D) Kəsilişdə rast gəlinən mürəkkəb tektonik pozulmalar

E) Layların yatım bucaqları

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

53. Hansı variant quyu lüləsinin təbii əyilməsinə təsir edən texniki amillərə aid deyil?

A) Qazma vışkasının ağırlıq mərkəzinin oxu ilə quyu mərkəzindən keçən oxun üst-üstə düşməməsi

B) Quyu divarında müxtəlif çatlar və boşluqların olması

C) Rotorun düzgün yerləşdirilməməsi

D) Şaxt və ya istiqamətləndirici kəmərlərin tam şaquli istiqamətdə buraxılmaması

E) Aparıcı boruda cüzi əyriliyin olması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

54. Aşağıdakılardan hansı maili qazmada quyuların əyilməsi üçün tətbiq olunan əsas üsullardan biridir?

A) Müxtəlif tip QKAH quruluşunu tətbiq etməklə quyu lüləsinin əyilməsinin idarə olunması

B) Şaxt və ya istiqamətləndirici kəmərlərin tam şaquli istiqamətdə buraxılmaması ilə quyu lüləsinin əyilməsi

C) Aparıcı boruda cüzi əyriliyin olması ilə quyu lüləsinin əyilməsi

D) Qazma vışkasının ağırlıq mərkəzinin oxu ilə quyu mərkəzindən keçən oxun üst-üstə düşməməsi ilə quyu lüləsinin əyilməsi

E) Rotorun bucaq altında yerləşdirilməsi ilə quyu lüləsinin əyilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

55. Maili quyu profillərinin əsas tiplərinə aid olmayan hansıdır?

A) Dördintervallı

B) İkiintervallı

C) Üçintervallı

D) Birintervallı

E) Beşintervallı

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

56. Quyunun möhkəmləndirilməsi ilə bağlı mülahizələrdən hansı doğru deyil?

A) Lay sularının bir horizontdan digərinə axmasının, atmosferə təzahürlərinin və onlarla bağlı mürəkkəbləşmələrin qarşısını alır

B) Quyunun istismarı dövründə qaz və mayenin maniəsiz hərəkəti üçün uzun müddətli, etibarlı və hermetik kanalın yaradılır

C) Quyunun bütün işləmə dövrü üçün quyu divarının dəyanətli olmasını təmin edir

D) Müxtəlif horizontlarda lay təzyiqlərinin dəyişməsinə baxmayaraq sabit xüsusi çəkili məhlulla qazmağa imkan verir

E) Geoloji kəsilişdə bir-birinə yaxın olan laylardan birində udulma, digərində isə fantan təhlükəsi olan layların fəaliyyətinin qarşısını alır

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

57. Aralıq kəmərin təyinatı nədir?

A) Geoloji kəsilişin yuxarıda yerləşən qazıma zonasında qazıma şəraitlərinin aşağıda yerləşən zonanın qazıma şəraitlərinə uyğun olmayan horizontlarını möhkəmlətmək və izolə etmək

B) Məhsuldar qatı quyunun geoloji kəsilişində olan başqa horizontlardan izolə etmək

C) Kəsilişin yuxarı intervalında dəyanətsiz suxurları möhkəmlətmək , sulu layları çirklənmədən qorumaq, quyu ağzında təzahürlər əleyhinə avadanlığı quraşdırmaq və sonrakı qoruyucu boruların asılmasını təmin etmək

D) Dəyanətsiz suxurlardan təşkil edilmiş yuxarı intervalın möhkəmləndirilməsi, quyu ağzının yuyulub dağılmasının qarşısını almaq və quyu ağzını nov sistemi ilə birləşdirmək

E) Quyu lüləsinin açıq hissəsini möhkəmləndirmək üçündür, o, əvvəlki qoruyucu kəmərin içərisinə 100 m-dən az olmayaraq daxil olmalı və ondan asilmalıdır.

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

58. Konduktorun təyinatı nədir?

A) Məhsuldar qatı quyunun geoloji kəsilişində olan başqa horizontlardan izolə etmək

B) Dəyanətsiz süxurlardan təşkil edilmiş yuxarı intervalın möhkəmləndirilməsi, quyu ağzının yuyulub dağılmasının qarşısını almaq və quyu ağzını növ sistemi ilə birləşdirmək

C) Quyu lüləsinin açıq hissəsini möhkəmləndirmək üçündür, o, əvvəlki qoruyucu kəmərin içərisinə 100 m-dən az olmayaraq daxil olmalı və ondan asılmalıdır

D) Geoloji kəsilişin yuxarıda yerləşən qazıma zonasında qazıma şəraitlərinin aşağıda yerləşən zonanın qazıma şəraitlərinə uyğun olmayan horizontlarını möhkəmlətmək və izolə etmək

E) Kəsilişin yuxarı intervalında dəyanətsiz suxurları möhkəmlətmək , sulu layları çirklənmədən qorumaq, quyu ağzında təzahürlər əleyhinə avadanlığı quraşdırmaq və sonrakı qoruyucu boruların asılmasını təmin etmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

59. İstiqamətləndirici kəmərin təyinatı nədir?

A) Məhsuldar qatı quyunun geoloji kəsilişində olan başqa horizontlardan izolə etmək

B) Geoloji kəsilişin yuxarıda yerləşən qazıma zonasında qazıma şəraitlərinin aşağıda yerləşən zonanın qazıma şəraitlərinə uyğun olmayan horizontlarını möhkəmlətmək və izolə etmək

C) Quyu lüləsinin açıq hissəsini möhkəmləndirmək üçündür, o, əvvəlki qoruyucu kəmərin içərisinə 100 m-dən az olmayaraq daxil olmalı və ondan asilmalıdır.

D) Kəsilişin yuxarı intervalında dəyanətsiz suxurları möhkəmlətmək , sulu layları çirklənmədən qorumaq, quyu ağzında təzahürlər əleyhinə avadanlığı quraşdırmaq və sonrakı qoruyucu boruların asılmasını təmin etmək

E) Dəyanətsiz suxurlardan təşkil edilmiş yuxarı intervalın möhkəmləndirilməsi, quyu ağzının yuyulub dağılmasının qarşısını almaq və quyu ağzını nov sistemi ilə birləşdirmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

60. Letuçka nədir və nə üçün istifadə olunur?

A) Quyruq kəmərinin bir növü olub, məhsuldar qatı izolə etmək üçün istifadə edilir

B) İstiqamətləndirici kəmərin bir növü olub dəyanətsiz suxurlardan təşkil edilmiş yuxarı intervalın möhkəmləndirilməsi, quyu ağzının yuyulub dağılmasının qarşısını almaq üçün istifadə edilir

C) Xüsusi aralıq kəməri olub, yalnız yaranmış mürəkkəbləşmələri təcili sürətdə ləğv etmək üçün istifadə edilir.

D) Konduktorun bir növü olub quyu ağzında təzahürlər əleyhinə avadanlığı quraşdırmaq və sonrakı qoruyucu boruların asılmasını təmin etmək üçün istifadə edilir

E) Texniki kəmərin bir növü olub, sonrakı intervalların qazılması zamanı baş verə biləcək mürəkkəb-ləşmələrin qarşısını almaq üçündür.

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

61. Quyu quruluşunun sadələşdirilməsi dedikdə nə başa düşülür?

A) Quyuya buraxılacaq kəmərlərdən hər hansı birinin yaxud ikisinin ixtisara salmaq

B) Quyuya buraxılacaq konduktorun, aralıq kəmərinin və istismar kəmərinin diametrini mümkün qədər kiçik götürmək

C) Quyuya buraxılacaq qoruyucu kəmərin xarici diametri ilə quyu divarı arasında olan boşluğu imkan daxilində azaltmaq, yəni həmin kəmərin yerini qazıyan baltanın diametrini mümkün qədər kiçik götürmək

D) Konduktor yaxud aralıq kəmərinin buraxılma dərinliyini azaltmaq

E) Quyunu yalnız kiçik xüsusi çəkili məhlul ilə qazmaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

62. Qoruyucu boruların uzunluğu adətən hansı interval aralığında olur?

A) 9-15

B) 8-10.5

C) 5.5-9.5

D) 9.5-13

E) 8-12

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

63. Qoruyucu kəmərlərin markasında (P-110, K-55) rəqəm hissəsi nəyi göstərir?

A) Nisbi uzanmasını

B) Daxili diametrini

C) Xarici diametrini

D) Bir metrinə düşən çəkisini

E) Axıcılıq həddini

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

64. Hansı halda qoruyucu borular zay boru kimi kənar edilmir?

A) Boru üzərində metal təbəqələşməsi olduqda

B) 1 metr boruda 1.1 mm əyrilik olduqda

C) Boru üzərində əzik və ya batıq olduqda

D) Boru üzərində qaysaq olduqda

E) Boru üzərində çat olduqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

65. Verilənlərdən hansı quyu lüləsinin qoruyucu kəmərlərin buraxılmasına hazırlanması mərhələlərinə aid deyil?

A) Yuma, qazıma məhlulu kimyəvi reaqentlər və əlavələrlə işlənməsi

B) Layın bütövlüyü testinin aparılması

C) Kompleks elektrometrik işlər aparılması

D) Quyunun en kəsiyinin konfiqurasiyası və tamponaj materiallarına olan tələblərin nəzərdən keçirilməsi

E) Quyu lüləsinin təkrar şablonlaşdırılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

66. Qoruyucu kəmərlər endirilməzdən öncə hansı elektrometrik işlər aparılmır?

A) Kavernomer

B) RBT

C) İnklinometr

D) Profilomer

E) Standart karotaj

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

67. Aşağıdakılardan hansı keyfiyyətsiz sementləmənin nəticəsi deyil?

A) Məhsuldar layda neft və qazın ehtiyatını düzgün təyin etməyə imkan verməməsi

B) Neftin, qazın və suyun bir laydan başqa laya axması

C) Məhsuldar qatın tez sulaşmasına şərait yaratması

D) Quyuda baş verən qaz neft təzahürlərinin, qrifonların, açıq neft və qaz fantanlarının baş verməsi

E) Məhsuldar horizontda lay təzyiqinin artması

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

68. Sementləməyə hazırlıq işlərinə aid olmayan variant hansıdır?

A) Sementləmə xətlərinin çəkilməsi

B) Yuma, məhlulun parametrlərinin tənzimlənməsi

C) Sement başlığının qoyulması

D) Sementləmə xətlərinin kipliyə yoxlanması

E) Basqı məhlulunun vurulması

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

69. Hidravlik zərbə nəyə deyilir?

A) Sementləmənin sonunda təzyiqin bir an içində qalxmasına

B) Sementləmə başlayan and yaranan təzyiqə

C) Basqı məhlulunun xüsusi çəkisinin sement məhlunun xüsusi çəkisinə olan nisbətinə

D) Sementləmə zamanı quyuda yaranan hidrostatik təzyiqə

E) Sement məhlulunun quyunun divarlarına göstərdiyi təzyiqə

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

70. Hansı halda iki pilləli sementləmə üsulundan istifadə edilmir?

A) Sement körpüsü qoyulduqda

B) Sement məhlulunu tələb edilən hündürlüyə qaldırmaq mümkün olmadıqda

C) Texniki çətinlik, layların hidravlik yarılması ehtimalı olduqda

D) Qənaət etmək məqsədilə

E) Quyu dibində olan yüksək temperatur bir pilləli sementləməyə imkan vermədikdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

71. İki pilləli sementləmə hansı ardıcıllıqla yerinə yetirilir?

A) 1. Bufer məhlulu vurulur.
2. Sement məhlulu vurulur.
3. Aşağı sementləmə tıxacı buraxılır.
4. Yuxarı sementləmə tıxacı buraxılır.
5.Sement məhlulu vurulur.
6. Basqı məhlulu vurulur.

B) 1. Bufer məhlulu vurulur.
2. Sement məhlulu vurulur.
3. Basqı məhlulu vurulur.
4. Sement məhlulu vurulur.
5. Aşağı sementləmə tıxacı buraxılır.
6. Yuxarı sementləmə tıxacı buraxılır.
7. Basqı məhlulu vurulur.

C) 1. Bufer məhlulu vurulur.
2. Sement məhlulu vurulur.
3. Basqı məhlulu vurulur.
4. Aşağı sementləmə tıxacı buraxılır.
5. Sement məhlulu vurulur.
6. Yuxarı sementləmə tıxacı buraxılır.
7. Basqı məhlulu vurulur.

D) 1. Aşağı sementləmə tıxacı buraxılır.
2. Bufer məhlulu vurulur.
3. Sement məhlulu vurulur.
4. Basqı məhlulu vurulur.
5. Sement məhlulu vurulur
6. Yuxarı sementləmə tıxacı buraxılır.
7. Basqı məhlulu vurulur.

E) 1. Aşağı sementləmə tıxacı buraxılır.
2. Bufer məhlulu vurulur.
3. Sement məhlulu vurulur.
4. Yuxarı sementləmə tıxacı buraxılır.
5. Basqı məhlulu vurulur.

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

72. Akustik karotajın köməyi ilə müəyyən olunur:

A) Quyu lüləsi temperaturanın dəyişməsi, zenit və azimut bucaqları

B) Kəmər arxasındakı sementin perimetr qalınlığı, kəmər arxasındakı laylar arasında əlaqənin olub olmaması

C) Temperaturanın kəmər boyunca dəyişməsinə əsaslanaraq, kəmər arxasında sementin qalxma hündürlüyünü

D) Quyunun en kəsiyinin konfiqurasiyası

E) Kəmər arxasındakı sement məhlulunun hündürlüyü, sementin kəmər və quyu divarı ilə kontakt dərəcəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

73. Termokarotajın köməyi ilə müəyyən olunur:

A) Lülənin nominal diametri, kəskin əyilmə yerləri

B) Kəmər arxasındakı sement məhlulunun hündürlüyü, sementin kəmər və quyu divarı ilə kontakt dərəcəsi

C) Quyunun en kəsiyinin konfiqurasiyası

D) Kəmər arxasındakı sementin perimetr qalınlığı, kəmər arxasındakı laylar arasında əlaqənin olub olmaması

E) Temperaturanın kəmər boyunca dəyişməsinə əsaslanaraq, kəmər arxasında sementin qalxma hündürlüyünü

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

74. Qamma karotajın köməyi ilə müəyyən olunur:

A) Kəmər arxasındakı sementin perimetr qalınlığı, kəmər arxasındakı laylar arasında əlaqənin olub olmaması

B) Quyunun en kəsiyinin konfiqurasiyası

C) Temperaturanın kəmər boyunca dəyişməsinə əsaslanaraq, kəmər arxasında sementin qalxma hündürlüyünü

D) Quyu lüləsi temperaturanın dəyişməsi, zenit və azimut bucaqları

E) Kəmər arxasındakı sement məhlulunun hündürlüyü, sementin kəmər və quyu divarı ilə kontakt dərəcəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

75. Hansı variant sementləmə zamanı baş verə biləcək mürəkkəbləşmələrə aid deyil?

A) Qazma alətinin qırılaraq quyuya düşməsi

B) Qazıma məhlulunun udulması

C) Kəmər arxası fəzada bir laydan başqa laya axın

D) Sement məhlulunun kəmər arxası fəzada tələb edilən hündürlüyə qaldırılmaması

E) Qaz təzahürləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

76. Verilənlərdən hansı tərkibindəki büzüşdürücülərə görə təsnif olunan tamponaj sement növü deyil?

A) Domna sobalarının şlakları əsasında hazırlanan tamponaj sementləri

B) Portlandsement əsaslı tamponaj sementləri

C) Polimer əsaslı tamponaj üzvi bərkidicilər

D) Gipsli, belitli və ya təbii mineral tərkibli tamponaj sementləri

E) Neft tərkibli tamponaj sementləri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

77. Sınaq temperaturu və tətbiqinə görə sementlər neçə sinfə ayrılır?

A) 2

B) 4

C) 3

D) 1

E) 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

78. Portlandsementin əsasını nə təşkil edir?

A) Barit

B) Qum

C) Neft

D) Klinker

E) Limonit

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

79. Sement məhlulunun bərkimə müddətini tezləşdirmək üçün ona hansı maddələr əlavə olunur?

A) Natrium bixromat, kalium bixromat

B) Barit, sulfit spirt cecəsi

C) Kalsium xlorid, kalsiumlu soda

D) Poliakrilontril, çaxır daşı turşusu

E) Polifenol, barium sulfat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

80. Sement məhlulunun əsas xassələrinə aid olmayan variantı seçin:

A) Sement məhlulunun tutuşma vaxtı

B) Sement məhlulunun su verməsi

C) Sement məhlulunun qatılaşması

D) Sement məhlulunun həcmi

E) Sement məhlulunun sıxlığı

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

81. Sement məhluluna suverməni azaltmaq üçün hansı reagentlər vurulur?

A) Barit, dəmir oksidi, qalenit

B) Gil, gipan, KMS

C) Fosfatlar, tannatlar, liqnitlər

D) Bentonit, neft, polimer

E) Fibroz, sellofan, bentonit

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

82. Sement məhlulunun su verməsi hansı cihaz vasitəsilə ölçülür?

A) MWD

B) Konsistometr KC-3

C) RBT

D) BM-6

E) Vik cihazı

Testin çətinlik dərəcəsi: asan

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

83. Sement məhlulunun tutuşma vaxtı hansı parametrdən asılı deyil?

A) Su sement nisbəti

B) RBT ölçü işləri

C) Təzyiq

D) Temperatur

E) Əlavə edilmiş reagentlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

84. "Soyuq quyular" üçün sementin tutuşma invervalı hansı variantda doğru göstərilib?

A) 1.75-4.30 saat

B) 1-5 saat

C) 2-10 saat

D) 1.5-5.5 saat

E) 5-12 saat

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

85. Ağırlaşdrılmış sement məhlulundan hansı halda istifadə olunur?

A) İstiqamətləndirici konduktor kəmərin sementlənməsində

B) Dayaz quyuların sementlənməsində

C) Udulma baş verən hallarda

D) Aşağı xüsusi çəkiyə malik qazma məhlulu (1.4 q/sm3-dan az) ilə qazılan quyuların sementlənməsində

E) Yüksək xüsusi çəkiyə malik qazma məhlulu (1.9 q/sm3-dan çox) ilə qazılan quyuların sementlənməsində

Testin çətinlik dərəcəsi: orta

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

86. Yüksək xüsusi çəkili sement məhlulu hazırlamaqdan ötrü hansı reagenlərdən istifadə olunur?

A) Calsium xlorid, natrium xlorid

B) Fosfatlar, liqnitlər

C) Tannatlar, poliakrilatlar

D) Hematit, maqnetit

E) Diatomit, liqnosulfatlar

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B.A.Quliyev, M.M.Şirinov. Neft və qaz quyularının qazılması. Bakı, 2009

